*Y.Əliyev. Kökləri məna müstəqilliyini itirmiş sözlərin morfoloji quruluş xüsusiyyətləri // Əlyazmalar yanmır, 2020, № 1 (10), s. 156-162.*

UOT: 811.512.161

**Yadigar Əliyev**
*filologiya üzrə elmlər doktoru*
*Gəncə Dövlət Universiteti,*
*Gəncə şəhəri, Şah İsmayıl Xətai küçəsi*
*e-mail: yadigar_aliyev@mail.ru*

# KÖKLƏRİ MƏNA MÜSTƏQİLLİYİNİ İTİRMİŞ SÖZLƏRİN MORFOLOJİ QURULUŞ XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Asemantikləşmə hadisəsi sözün fonetik, morfoloji quruluşu ilə bilavasitə bağlıdır. Adətən sözün asemantikləşməsi həm kökə məxsus fonetik strukturda, həm də kök, yaxud şəkilçi tərkibində dəyişikliklərlə müşayiət olunur. Bu zaman müstəqilliyini itirmiş köklərdə ilkin fonetik, yaxud morfoloji quruluşdan az, ya çox dərəcədə uzaqlaşma baş verir. Xronoloji baxımdan hər cür struktur (forma ilə bağlı) dəyişməsi (itməsi) fuziallaşmadan (məna deformasiyasından) qabaqda dayanır.

Əksər hallarda leksik mənanın itməsi morfoloji hüdudların dəyişməsi ilə müşayiət olunur. Məsələn, ögey sözünün ög kökü ilə (“ana” mənasında) bağlılığını tarixi-müqayisəli metodun köməyi ilə etimoloji təhlil müəyyən edə bilər. Çünki adi morfoloji təhlil itmiş məna ilə şəkilçinin qrammatik bağlarını üzə çıxara (bərpa edə) bilmir. Daşlaşmış qrammatik bağlar kök-şəkilçi sərhədlərinin itməsi ilə nəticələnir. Sonuncu isə öz növbəsində leksik vahidin quruluşca dəyişikliyinə səbəb olur. Belə bir hal məna müstəqilliyini itirmiş quruluşca mürəkkəb leksik vahidlərdə də müşahidə olunur. Bu zaman mürəkkəb sözlərin komponent sərhədlərini müəyyən edən sintaktik əlaqələr öz növbəsində daşlaşa bilir. Məsələn, bilərzik sözünün komponent tərkibi I növ təyini söz birləşməsi strukturunda yanaşma əlaqəsi ilə birləşmiş iki sadə sözü (səs tərkibi deformasiyaya uğramış bilək və üzük sözlərini) əhatə edir. Daşlaşmış sintaktik əlaqələr, üstə gəl fonetik quruluşdakı dəyişiklik müəyyən leksik vahidin komponenti hüdudlarının itməsi ilə nəticələnir və bu tipli leksik vahidlər quruluşca sadə sözlərə çevrilir.

***Açar sözlər:*** *kök, şəkilçi, leksik vahid, semantika*

**Giriş**

*Asemantikləşmə hadisəsi sözün morfoloji quruluşu ilə bilavasitə bağlıdır. Müstəqilliyini itirmiş köklərə məxsus ilkin morfoloji quruluşda müəyyən dəyişikliklər özünü göstərir. Kök və şəkilçinin qrammatik bağları (həm də kök-şəkilçi sərhədləri) itir. Bu isə sözün ənənəvi morfoloji strukturuna təsirsiz qalmır. Quruluşca düzəltmə, yaxud mürəkkəb leksik vahidlər sadə sözlərə çevrilir. Onlar sözlərin dilimizdə ilkin fonomorfoloji vəziyyətini əks etdirir və özünün semantik strukturu ilə müasir dil daşıyıcıları üçün aydın olmaya bilir. Azərbaycan dilində asemantikləşmiş kökə malik sözlərdə leksik şəkilçilər üstünlük təşkil edir.*

**Asemantikləşmiş sözlərin quruluş xüsusiyyətləri.** Sözün asemantikləşməsi onun semantik strukturu ilə bağlıdır. Sözdə baş verən hər hansı dəyişiklik ilk növbədə məna faktorunda üzə çıxır: məna tutumu ya daralır, ya da genişlənir. "Mübahisə etmək" mənasında atışmaq feilinin kökü (at-) səsdüşümünə məruz qalmış "danışmaq, söyləmək" mənasında ayt/ayıt – feilindən yaranmış olduğuna görə genişlənməmiş (daralmış) məna daşıyıcısı hesab edilir (danışmaq-mübahisə etmək). Bununla belə, leksik vahidə məxsus fonetik və morfoloji quruluşlar da asemantikləşmə hadisəsinin əhatə dairəsindən kənarda qalmır. Əslində ilkin (asemantikləşmiş) köklərin məna dəyişmələri ilə sözə məxsus səs və kök-şəkilçi tərkibləri arasında birbaşa bağlılıq özünü göstərir və bu bağlılıq zəncirvari şəkildə sıralanır. Fonetik quruluşun dəyişməsi bəzən mənanın itməsinə gətirib çıxarır. Sonuncu isə sözün ənənəvi morfoloji strukturuna təsir göstərməyə bilmir. Daşlaşmış kök ayrıca leksik vahid kimi işlənmədiyindən sözün morfoloji strukturu da fəaliyyətdən qalır. Nəticədə kökün şəkilçi ilə bütün struktur-semantik əlaqələri daşlaşır. Bu cür sözlər ənənəvi qaydada kök-şəkilçi tərkibinə ayrıla bilmir. Bu səbəbdən atışmaq, barışmaq, danışmaq kimi asemantikləşmiş kökəbmalik leksik vahidlərdə -ış komponenti feilin qarşılıq-birgəlik növünün şəkilçisi kimi fərqləndirilmir.

Tədqiqatlarda məna müstəqilliyini itirmiş sözlər müxtəlif terminlərlə adlandırılır: daşlaşmış (fuziallaşmış) kök morfemlər, ilkin köklər, sözün ilkin fonomorfoloji vəziyyəti, qədim köklər, müstəqilliyini itirən sözlər, mənaca boşalan sözlər, aydın olmayan köklər, asemantik köklər, arxetip (12, s. 9; 7, s. 82; 9; 2, s. 41; 10, s. 59) və s. Adların hər birində asemantikləşən köklərə məxsus bir səciyyəvi cəhət ifadə olunur. İlkin mənalarını itirdikdən sonra onlar fuziallaşır, müstəqil işlənə bilmir, sözə məxsus ilkin və qədim kök forma hesab edilir, sözlərin dilimizdə ilkin fonomorfoloji vəziyyətini (quruluşunu) əks etdirir və özünün semantik strukturu ilə müasir dil daşıyıcıları üçün aydın olmaya bilir. Məna dəyişmələri asemantikləşmiş sözlərin səciyyəvi xüsusiyyətlərindəndir. Tədqiqatlarda dilimizdəki sözlərin tərkib və mənaca dəyişməsinin üç növü fərqləndirilir: asemantikləşmə, sıxılma və leksikləşmə (1, s 7). Hər üç hadisə sözlərdə leksik-semantik inkişaf prosesinin nəticəsi kimi meydana çıxır. Hər cür semantik inkişaf isə leksik mənanın dəyişməsi ilə müşayiət olunur. S.X.Vəliyeva yazır ki, asemantikləşmə dilin inkişafının müəyyən mərhələsində söz quruluşunun əsas vahidləri olan kök və ya şəkilçinin öz müstəqilliyini itirərək, qalıq (relikt) şəklində başqa söz və ifadələrdə saxlanılması prosesidir. Bu proses zamanı söz strukturunda quruluş dəyişmələri ilə yanaşı, qrammatik-semantik dəyişiklik baş verir ki, bunun nəticəsində də semantik boşalma keçirən kök-morfemlər dilin morfoloji quruluşunda leksik mənası olmayan morfemlərə çevrilirlər (12, s. 9).

Asemantikləşmədə mühüm cəhət, sübhəsiz, məna komponentində üzə çıxır və o, bir sıra əhəmiyyətli dəyişikliklərə səbəb olur. İlkin olaraq, asemantikləşmiş kökə malik söz ənənəvi məzmun və quruluş xüsusiyyətlərindən uzaqlaşır. Alışmaq sözünün ("yanmaq" mənasında) al kökü ayrılıqda işlənmədiyi kimi, -ış şəkilçisi də qarşılıq (yaxud birgəlik) növün əlaməti kimi söz daxilində funksional deyil. Kökləri məna müstəqilliyini itirmir belə sözlər feillərin içərisində çoxluq təşkil edir: ağlamaq, anlamaq, bağışlamaq, danışmaq, dağılmaq, danlamaq, dəyişmək, dinləmək, düşünmək, qarışmaq, qışqırmaq, qızarmaq, güləşmək, çalışmaq, soruşmaq, yarışmaq və s. İrəli sözünün fonetik dəyişikliyə (r>l metatezası) uğramış komponent tərkibi də məna və funksiyaca daşlaşmış il kökü və samit düşümünə məruz qalmış –gərü (-ərü) istiqamət halı şəkilçisindən ibarətdir.

Morfem (konkret halda şəkilçi) morfoloji quruluşun əsas vahididir. İstənilən sözün tərkibində bu, vahid qrammatik məna göstəricisi hesab edilir. Morfem asemantikləşə bildiyi halda, qrammatik məna nəinki itir, hətta sözün leksik mənası ilə qovuşmuş halda funksionallığını qoruyub saxlayır. İrəli sözündə fonetik dəyişikliyə uğramış şəkilçi səs tərkibinə görə dəyişsə də, sözün quruluş vahidi kimi daşlaşsa da, qrammatik məna - istiqamət hal məzmunu sözün ümumi semantik yükünü təşkil edir. Burada sema iki komponentdən –"ön, qabaq" mənasından və istiqamət məzmunundan ibarətdir. Sözün semantik tutumu göstərir ki, sonuncu məzmun qrammatik mənadan çox leksik məna elementini, onun tərkib hissələrindən birini təmsil edir.

Semanın bu cür komponent tərkibi kökləri məna müstəqilliyini itirmiş istənilən sözdə müşahidə edilir: yuxarı, geri, aŋarı (dialektdə işlənir), yarış (maq), barış (maq), güləş (mək) və s.

Sözdə leksik və qrammatik mənaların xüsusi dil vahidləri ilə ifadə olunduğu Azərbaycan dilindən (və digər aqqlütinativ dillərdən) fərqli olaraq, flektiv dillərdə "asemantik morfem" anlayışından da istifadə olunur. Rus dilçiliyində mənası olmayan bütün morfoloji elementlər asemantik morfem ("boş morf" da adlandırılır) hesab edilir. Buraya söz formanı yaradan müxtəlif elementlər (məsələn: mat-er-i, sözün kökü мать "ana" mənasında; чуд-ес-ный, sözün kökü чуд "möcüzə"), sözlə şəkilçi arasında çıxış edən sözün hissələri (шоссе–й-ный "şosseyə aid", америк-ан-ский "Amerikaya aid"), birləşdirici saitlər (лес-о-воз "meşəağacı daşıyan nəqliyyat") aid edilir (14, s. 44). Rus dilində bu elementlər qrammatik məna daşımasa da, onların hər biri müəyyən vəzifə yerinə yetirir və leksik mənalı vahidin tərkibində (və onunla birlikdə) sözə yalnız quruluş ünsürü kimi xidmət göstərir. Azərbaycan dilində isə söhbət verilmiş sözün tərkibində funksiyasını itirmiş (yəni daşlaşmış) şəkilçidən getdiyinə görə, söz quruluş xüsusiyyətlərindən uzaqlaşsa da, qrammatik məna semanın tərkibində qorunub saxlanır.

Kökün məna müstəqilliyini itirməsi sözü quruluşca dəyişdirə bilir. Bu, sözü əmələ gətirən (yaxud təşkil edən) hissələrin funksional cəhətdən zəifləməsi hesabına baş verir. İlk növbədə kök morfemin məna əlaqələri zəifləyir və itir. Digər tərəfdən, şəkilçi morfem bu prosesdən kənarda qalmır və funksional gücünü itirir – leksik morfem yeni söz yaratma, qrammatik morfem sözdəyişdirmə (və qrammatik cəhətdən əlaqələndirmə) vəzifəsindən uzaqlaşır. Professor B. Əhmədova görə, kökün leksik mənadan uzaqlaşması ilə şəkilçinin funksionallığı dəyişir. O yazır ki, qədim söz kökü geniş və əhatəli məna yükünü idarə edə bilmədiyi vaxtdan kök ümumi mənanın bir hissəsini bildirməyə başlayır, o biri məna və ya mənalar fonovariantlarla və ya kök-şəkilçi qovuşuğu ilə işlədilir. Bu dövrdən başlayaraq, kökə birləşən şəkilçi də öz şəkilçi olmaq funksiyasını, yeni söz yaratma gücünü itirir və formal ünsürə, sözün tərkib hissəsinə çevrilir (3, s. 40).

Sadə söz kimi işlənən daşı- feili asemantikləşmiş kök və qrammatik vəzifəsi zəifləmiş şəkilçi hissələrdən ibarətdir. Söz kökündə mənanın itməsi sonra gələn hissəni şəkilçi komponent kimi fərqləndirməyə imkan vermir. Funksional gücünü itirmiş kök-şəkilçi tərkibi quruluşca düzəltmə sözün ("bayır", "kənar" mənasında daş kökü və adlardan feil düzəldən –ı şəkilçisi) sadə leksik vahid kimi işlənməsinə səbəb olur. Bu cür sadə sözlərdə asemantikləşmiş köklə qovuşan şəkilçilər yalnız fonetik tərkib elementi kimi özünü göstərir.

Azərbaycan dilində asemantikləşmiş kökə malik sözlərdə leksik şəkilçilər üstünlük təşkil edir. Sözün morfoloji tərkibində aşağıdakı şəkilçilər daha çox müşahidə edilir: -ı (daşımaq), -aq (qonaq, otaq), -la (danlamaq), -laş (dalaşmaq, güləşmək), -lan (islanmaq), -lən (sülənmək), -ış (yarışmaq, barışmaq), -dır (sındırmaq), -daş (qardaş), -cuq (muncuq), -mac (umac), -ün (tütün), -ar (qızarmaq), -ər (cücərmək), -ıt (dağıtmaq), -ıl (dağılmaq), -ik (təpik), -ük (köpük) və s. Məlumdur ki, leksik şəkilçi kök morfemlə daha çox məna əlaqəsi ilə birləşir (məsələn, adlardan isim düzəldən –cıq, -cik, -cuq, -cük eləcə də, -ça, -çə şəkilçiləri qoşulduğu söz kökündə kiçiltmə mənasını yaradır: şəhər-şəhərcik, göz-gözlük, meydan-meydança, dəftər-dəftərçə və s.). Odur ki, düzəltmə quruluşlu sözdə bir çox hallarda kökün məruz qaldığı asemantikləşmə hadisəsi kök və şəkilçinin morfoloji kontaktını (və ya qrammatik əlaqəsini) daha davamlı edir. Qrammatik şəkilçi isə sözlər arasında qrammatik bağlılıq yaratmağa xidmət etdiyindən kök morfemlə şəkilçi morfemin əlaqəsi sıx və davamlı olmur. Şəkilçi hissəsi müasir dilimizdə işlənməyən bəzi asemantikləşmiş kökə malik leksik vahidlər istisna təşkil edir. Belə sözlərdə ya köklə yanaşı, şəkilçi komponent də asemantikləşir, ya da kök morfemlə şəkilçi morfemin fonetik tərkibi hər hansı fonetik hadisə (əsasən metateza) nəticəsində bir-biri ilə qovuşur. Məsələn, qurmaq, yaşmaq, toxmaq sözlərində məna müstəqilliyini itirmiş köklər Müasir Azərbaycan dilində müstəqil feil kimi işlənmədiyindən sonrakı komponenti məsdər şəkilçisi kimi düşünmək olmur. Eləcə də yuxarı sözünün şəkilçi komponenti (-arı istiqamət hal şəkilçisi) müasir dilimizdə işlənmədiyindən leksik vahidi kök və şəkilçiyə ayırmaq mümkün olmur. Ya-

xud irəli sözü samit yerdəyişməsinə məruz qalmış il kökü ilə -əri istiqamət halı şəkilçisinin qovuşmasından yaransa da, dəyişikliyə səbəb olan fonetik hadisə onları kök və şəkilçi formaları kimi fərqləndirməyə imkan vermir. Odur ki, qrammatik şəkilçilər hər hansı sözün daxilində (asemantik köklə birlikdə) az-az hallarda morfem funksiyasını itirir və daşlaşır. Bu səbəbdən qrammatik şəkilçili sözlər, bir qayda olaraq, azlıqda qalır (-arı, -əri istiqamət hal şəkilçisi: yuxarı, irəli; -maq məsdər şəkilçisi: qarmaq, qaymaq və s.). Qrammatik şəkilçilər cümlə daxilində bir-birindən fərqli müxtəlif səciyyəli sözlər arasında əlaqə yarada bildiyindən daha mütəhərrik olur; bəzən bir-birini əvəz edir, biri digərinin yerinə işlənirlər. S.Q.Hüseynov yazır ki, dil quruluşundan asılı olaraq, qrammatik vahidlərin yaranmasının müxtəlif yolları vardır. Bəzi şəkilçilərin keyfiyyət dəyişikliyinə uğrayaraq, yeni funksiya daşıması bu yollardan biridir. Bu proses özünü iki istiqamətdə göstərir. Bəzi sözdəyişdirici şəkilçinin sözdüzəldici şəkilçiyə keçməsi, bir sözdəyişdirici şəkilçinin digərinə keçməsi. Məsələn, -ar, -ər şəkilçisi vaxtilə, indiki-gələcək zaman şəkilçisi kimi işlənmiş, sonradan differensiallaşaraq ayrı-ayrılıqda indiki və ya gələcək zaman şəkilçisinə çevrilmiş, həm də feili sifət şəkilçisi olmaqla yanaşı, isim düzəldən qrammatik vahidə də çevrilmişdir (6, s. 43). Leksik şəkilçilər isə əksər hallarda sabit funksional təyinatını dəyişmir, həmişə yeni söz və yeni leksik məna yaradır. Adlara qoşulan şəkilçilər feillərə qoşulan şəkilçilər ilə əsasən yerlərini dəyişmir.

Köklərin məna müstəqilliyini itirməsi quruluşca mürəkkəb sözlərin sadələşməsinə səbəb olur. S.Vəliyeva yazır ki, iki və daha artıq sözün birləşməsindən yaranan bəzi sözlərdə zaman-zaman baş vermiş hər hansı fonetik, leksik - semantik proseslər nəticəsində tərkib hissələr ilkin müstəqilliyini itirərək bütövlükdə sadə sözə çevrilir... Dildə mürəkkəb sözlərin sadələşməsinin bir sıra səbəbləri mövcuddur: çoxhecalılıqdan azhecalılığa meyil, tələffüz çətinliyinin aradan qaldırılması, sözlər arasında fonetik daralmanın baş verməsi. Bu da öz növbəsində dilin qənaət qanunu ilə əlaqədardır (12, s. 11).

Tərəflərindən biri məna müstəqilliyini itirmiş kökə malik mürəkkəb sözlər əsasən birinci növ və ikinci növ təyini söz birləşmələri modelində yaranırlar (bilərzik, qarğıdalı). Bu cür mürəkkəb leksik vahidlərdə adətən tərəflərdən biri məna müstəqilliyini itirir (Məsələn: çatmaqaş, adamayovuşmaz). Bəzən mürəkkəb sözlərdə hər iki tərkib hissə o zaman asemantikləşmiş olur ki, tərəflərdən biri və ya hər ikisi fonetik hadisələrdən birinin (və ya bir neçəsinin) təsirinə məruz qalır. Bu zaman fonetik dəyişikliyə uğramış komponentlərin səs tərkibi bir leksik vahid daxilində qovuşur. Məsələn, bilərzik sözünün səsdüşümünə, samitartımına və samit əvəzlənməsinə məruz qalmış bilək və üzük sözlərindən yarandığı məlumdur. Burada müvafiq fonetik tərkiblərin itməsi ilə quruluş kök vahidlərinə ayrıla bilmir.

Q.M.Həsənov yazır ki, sözlərin fonetik tərkibinin dəyişməsi onun quruluşuna da təsir edir və həmin sözün yaranmasında iştirak edən morfemlər fuziyaya uğradığından onların sərhəddini müəyyənləşdirmək işi çətinləşir. Buna görə də törəmə sözləri funksional vahidlərə ayırmaq daha məqsədəuyğundur. Törəmə sözlər azı iki funksional vahiddən ibarət olur ki, onlardan birincisi əsas mənanı ifadə edən törədici (kök və ya əsas), ikinci isə dəyişə bilən ( söz, şəkilçi və ya şəkilçi birləşməsi) hissədir (5, s. 33).

Asemantikləşmiş kökə malik mürəkkəb sözlərin digər qismi eyni mənalı leksik vahidlərdən ibarətdir. Burada mənasını itirmiş kökdə müstəqil leksik mənası olan kök birlikdə eyni anlayışın ifadəçisi olur. Yandırıb-yaxmaq mürəkkəb feilində ikinci tərəfin asemantikləşmiş yax- kökü birinci tərkib hissə ilə eyni leksik mənanı bölüşür. Müstəqil mənalı kökün asemantikləşmiş kökə qoşulması (yaxud əksinə) sadəcə nominativ, kommunikativ vəzifədən irəli gəlmir. Məlumdur ki, mürəkkəb sözlərin tərkib hissələri müxtəlif ortaq xüsusiyyətlərə görə bir-biri ilə əlaqələnir. Tədqiqatlarda qeyd olunur ki, mürəkkəb sözlərin əmələ gəlməsində komponentlərin məna xüsusiyyətləri, tipləri, forma və məzmun münasibətləri kimi cəhətlər özünü göstərir. Dilimizdə olan mürəkkəb sözlərin əmələ gəlməsi bir çox xüsusiyyətlərə təsadüf edir: funksiyaya görə, əlamətə görə, bənzətməyə görə, qüvvətlənməyə görə, mənsubiyyətə görə, ənənəyə görə, hərfi tərcüməyə görə (11, s. 127). Ancaq verilmiş halda mürəkkəb söz komponent-

lərinin birləşməsində (əlaqələnməsində) eyni mənalılıq əsas yer tutur. Mənasını itirmiş və mənasını itirməmiş iki leksik vahidin mürəkkəb söz tərkibində qovuşması üslubi məqsəd daşıyır. Kökü asemantikləşmiş söz müstəqilliyini itirməmiş söz ilə yanaşı işlənərək, leksik mənasını daha da qüvvətləndirir (yorğun-arğın, xəbər-ətər, qaşqabaqlı, qarmaqarışıq).

**Kökləri məna müstəqilliyini itirmiş sözlərdə morfonoloji dəyişikliklər.** Asemantikləşmə nəticəsində sözlərdə baş verən quruluş dəyişikliyi az əhəmiyyətli hadisə deyil. İstər düzəltmə, istərsə də mürəkkəb sözlərin sadələşməsi dildə yeni leksik vahidlərin əmələ gəlməsinə səbəb olur və bütövlükdə proses bunlarla məhdudlaşmır. Köklərin məna müstəqilliyini itirməsi sözün fonetik (morfonoloji) quruluşunda da dəyişikliklər əmələ gətirir. Belə dəyişiklikləri iki istiqamətdə nəzərdən keçirmək olar: a) yeni heca strukturlarının əmələ gəlməsi; b) çoxhecalı sözlərin formalaşması. Sait-samit (VC) tərkibli təkhecalı köklər beş müxtəlif səs tərkibinə malik şəkilçilərlə (VC, CV, V, CVC, VCV) morfoloji əlaqəyə girərək yeni heca tərkibli sözlər əmələ gətirmişdir: VCVC – ılıq, isit, uzun, otaq, igid; VCCV – isti, istə; VCV – ütü, iti; VCCVC – aldan; VCVCV – irəli (iləri).

Samit-sait-samit (CVC) tərkibli təkhecalı köklər üç cür heca tərkibinə malik şəkilçilərin qoşulması yeni sözlər yaradır: CVCCV – qarğı, tüstü, çevrə, bəslə-; CVCVC – qarış, danış, çadır, qonaq, çıraq; CVCCVC – qardaş, saplaq, yarpaq (yapraq), yastıq, yorğan, kərpic. H.A.Əsgərov yazır ki, türk dillərində o cümlədən də Azərbaycan dilində köklərin mürəkkəbləşməsi bir sıra hadisələrlə müşayiət olunur. Başqa sözlə, sözdüzəldici və sözdəyişdirici şəkilçilərlə kökün mürəkkəbləşməsi prosesi müxtəlif mənalı morfemlərin bir-biri ilə birləşməsi və onların fonetik baxımdan reduksiyası, köklərdən müəyyən fonemlərin düşməsi və digər təzahürlərlə müşayiət olunur (4, s. 6).

Fonetik hadisələr sözün heca-səs tərkibini dəyişdiyindən bu əsasda həm asemantikləşmiş köklər, həm də yeni heca strukturu formalaşır. Məsələn: "yatmaq" mənasında uy- təkhecalı kökü şəkilçi yerdəyişməsi ilə fonetik tərkibini dəyişir və bu sözün heca strukturuna təsirsiz ötüşmür (uy və yu-xu). Fonetik hadisə köklə şəkilçi sərhədində baş verdikdə heca strukturunda dəyişmələr olmaya bilir. Məsələn, tütsü-tüstü, yatsık-yastıq. Ancaq köklə yanaşı, şəkilçinin səs tərkibinin dəyişməsi yeni heca formalarını əmələ gətirir (ütük-ütü).

Asemantikləşmə nəticəsində iki hecalı sözlər formalaşır. Bunlar, bir qayda olaraq, kök və şəkilçi morfemlərdən ibarət olur: yarış, qızar-, güləş, qarış, baxış, danış-, çadır, qonaq, otaq, çıraq, yaxın, tütün, adaş, alış-, ayaq, addım, ögey, bəslə-, qarğı, tüstü, çevrə, yastıq, saplaq, qardaş, yarpaq, yorğan, kərpic, isti, isit-, istə-, igid, uzun, uzaq, iraq.

Asemantikləşmə nəticəsində formalaşan üç hecalı sözlərin morfoloji quruluşu kök və iki şəkilçini əhatə edir. Adətən şəkilçi morfemlərdən birincisi müasir dilimizdə öz funksionallığını itirmiş olur ("daşlaşır"; arıtla, adaxlı). Belə sözlərdə məna müstəqilliyini itirmiş kök sait-samit (VC; ad-axlı; il-dırım), sait-samit-sait (VCV; arı-tla), samit-sait-samit (CVC; yap-ıncı, dəy-irman) strukturuna malik olur. Bununla belə, tədqiqatlarda türk dillərində və Azərbaycan dilində CVC (samit-sait-samit) heca forması ilkin söz kökü modeli kimi qəbul edilir (8, s. 37). N.A.Baskakov yazır ki, türk dillərində söz kökünün samit-sait-samit (CVC) strukturu daimi və dəyişməz olmamışdır. Müasir türk dilərində kök morfemlərin çoxu sonrakı fonetik inkişaf prosesini əks etdirir. Kökə məxsus strukturun bu dəyişikliyi samit-sait-samit tərkibinin (CVC) ilk samitinin ((C)VC) və son samitinin (CV(C)) fonetik reduksiyası və düşməsi, yaxud sait dəyişməsi məna dəyişikliyi, eləcə də köklə sözdüzəldici afikslərin qaynayıb-qarışması, yeni köklərin yaranması ilə şərtlənir (13, s. 31).

**Nəticə**

*Asemantikləşmə sözlərdə leksik-semantik inkişaf prosesinin nəticəsi kimi meydana çıxır və leksik mənanın dəyişməsi ilə müşayiət olunur. Asemantikləşmiş kökə malik söz ənənəvi məzmun və quruluş xüsusiyyətlərindən uzaqlaşır. Belə sözlər feillərin içərisində çoxluq təşkil edir.*

*Morfem asemantikləşə bildiyi halda, qrammatik məna nəinki itir, hətta sözün leksik mənası ilə qovuşmuş halda funksionallığını qoruyub saxlayır. Söz quruluş xüsusiyyətlərindən uzaqlaşsa da, qrammatik məna semanın tərkibində qorunub saxlanır.*

*Kökün məna müstəqilliyini itirməsi sözü quruluşca dəyişdirə bilir. Bu, sözü əmələ gətirən hissələrin funksional cəhətdən zəifləməsi hesabına baş verir. Leksik morfem yeni söz yaratma, qrammatik morfem sözdəyişdirmə vəzifəsindən uzaqlaşır.*

**Ədəbiyyat siyahısı:**

1. Alışova E.Ə. Türk dillərində söz köklərinin struktur –semantik təhlili. Filologiya üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı. Bakı, 2012, -25 s.
2. Aslanov V. Daxili bərpa üsulu və Azərbaycan dilinin yazıyaqədərki fonomorfoloji və leksik-semantik mənzərəsinin öyrənilməsi // Azərbaycan filologiyası məsələləri. II bur. Bakı: "Elm", 1984
3. Əhmədov B.B. Morfoloji sadələşmə və tarixi söz yaradıcılığı // Türk dillərinin tarixi morfologiyasına dair araşdırmalar. Bakı,1990, s. 40-42
4. Əsgərov H.A. Azərbaycan dilində sadə quruluşlu peşə-sənət sözləri \\ Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası. №3, 2006, s. 5-15
5. Həsənov Q.M. Mürəkkəb leksik vahidlərin sadələşməsi // Azərbaycan dili leksikasının məsələləri. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1989, s. 33-36
6. Hüseynov Ş.Q. Bəzi qrammatik vahidlərdə diferensiallaşma // Türk dillərinin tarixi morfologiyasına dair araşdırmalar. Bakı: Bakı Universiteti nəşriyyatı, 1990, s. 43-46
7. Məhərrəmli B. Türk dillərində ilkin köklərin quruluşu və mənşəyi // AMEA Nəsimi adına Dilçilik İnstitutu. Tədqiqlər №1. Bakı, 2008, s. 82-87
8. Məhərrəmov B. Dilçilikdə kök sözlərin araşdırılması məsələləri // AMEA Nəsimi adına Dilçilik İnstitutu. Tədqiqlər, №4, 2017, s. 31-40
9. Məmmədli Y. Türk dillərində asemantik sözlər üzərinə //http://dergipark.gov.tr/download/article-file/188263
10. Məmmədov Y. Müstəqilliyini itirən köklərin çoxhecalılığa doğru inkişafı haqqında // Azərbaycan filologiyası məsələləri, II bur., Bakı: "Elm", 1984
11. Süleymanova S. Mürəkkəb sözlərin komponentləri arasında leksik-semantik və qrammatik münasibətlər // AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri, №10, Bakı: "Elm və təhsil", 2016, s. 127-131
12. Vəliyeva S.X. Müasir Azərbaycan dilində söz tərkibinin müəyyənləşməsinin qrammatik–semantik əsası. Filologiya üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı. Bakı, 2009. – 23 s.
13. Баскаков Н.А. Историко типологическая фонология тюркских языков: Москва: "Наука", 1988, 208 с.
14. Тихонов А. Н. Морфема как значимая часть слова // Филологические науки, 1971, №6

**Ядигар Алиев**

**Особенности морфологического строя слов с асемантическими корнями**

Явление асиментизации корней напрямую связано с фонетическим и морфологическим строением слов. Обычно асемантизация сопровождается с изменениями в фонетической и морфологической структурах. При этом асемантические слова строго отличаются от первичных корневых морфем. Всякие структурные изменения обычно хронологически предшествуют всяким семантическим изменениям.

Утрата лексических значений в основном связано с изменениями морфологических границ лексических единиц. Например, связь корня ög в значении «мать» с словом ögey (в

значении мачеха) выявляется только в рамках этимологических исследований с помощь сравнительно-исторического метода. По той причине, что с обычным анализом морфологического уровня практически невозможно вявление грамматических связей суффиксов с асемантическими корнями. С другой стороны, утрата лексическо-грамматических связей корней и суффиксов приводит к изменению структурного типа.
Это наблюдается и в сложных словах с окаменевшими сиртаксическими связьями, утерявщих семантическую самостоятельность. Например, компонентный состав слово bilərzik («браслет») состоит из двух простых слов bilək (кисть) и üzük (кольцо), соединивщиеся с синтаксической связью примыкание по структуре именных словосочетаний первого типа на азербайджанском языке. Окаменевшие синтаксические связи, изменения фонетической структуры приводит к исчезновению компонентных границ сложной лексической единицы и образуется простое слово.
***Ключевые слова:*** *корень, суффикс, лексическая единица, семантика*

**Yadigar Aliyev**

**Morphological structure features of the words lost their meaning independence of the roots**

The asementic phenomenon is directly connected with the phonetic, morphological structure of the word.Usually the asemantication of the word is accompanied by the changes in the phonetic structure belonging to the root, as well as in the root or suffix composition.At this time the more or less distancing from the initial phonetic or morphological structure happens at the roots that have lost their independence. According to the chronological point of viewall kinds of structural (about the form) changes (loss) stand ahead of the fusion (meaning deformation).
In most cases the disappearance of the lexical meaning is accompanied by a changing of the morphological boundaries. For example, the etymological analysis can determine the connection of the word “ogey” (“stepmother”) with the root “oy” (in the meaning of the word “mother”) with the help of a historical-comparative method.Because the usual morphological analysis can not reveal (restore) the grammatical connections of the suffix with the lost meaning. The petrified grammatical connections are completed with the loss of root-suffix boundaries.The latter, in turn, causes a structural change of the lexical unit.Such a case is also observed in the complex lexical units of the structure, which have lost its meaning independence. At this time the syntactic relations determining the component boundaries of the complex words, in turn, are able to petrify. For example, the component structure of the word “bilerzik” (“bracelet”) surrounds two simple words (the sound composition deformed of the words “bilek” (“wrist”) and “uzuk” (“ring”)) joined with the defining word combination type 1 structure with the relation of adjoining. The petrified syntactic relations and the changing in the phonetic structureare completed with the loss of the limits of the component of the certain lexical unitand such lexical units become the simple wordsstructurally.
***Key words:*** *root, suffix, lexical unit, semantics*

Redaksiyaya daxilolma tarixi: 02.06.2020
Çapa qəbul olunma tarixi: 10.06.2020

Akademik **Nizami Cəfərov** tərəfindən çapa tövsiyə olunmuşdur.